# Şuşanın təməlini qoyan nəslin varisinin həyat hekayəsi

## Rəşid Cavanşir: "İndi o qədər bəxtiyaram ki, bundan artığını istəməyə, bəlkə də, haqqım çatmaz"

**"Kaspi" qəzetinin qonağı Cavanşirlər nəslinin davamçısı, Azərbaycan elmində, neft sənayesində çoxsaylı xidmətləri olan Rəşid Cavanşirdir. Rəşid bəy 1951-ci il iyul ayının 17-də Bakıda anadan olub. 1973-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirib. Bundan sonra Azərbaycanda və ayrı-ayrı ölkələrdə müxtəlif vəzifələri uğurla icra edib. O, həm də Azərbaycan EA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda şöbə müdiri (1984-1997), elmi işlər üzrə direktor müavini (1988-1995) vəzifələrində çalışıb. 1995-2009-cu illərdə bir neçə nüfuzlu beynəlxalq neft şirkətlərində rəhbər vəzifələr tutub, 2009-cu ilin sentyabr ayında BP-Azərbaycan şirkətinin prezidenti təyin olunub**

**Rəşid bəy olduqca dərin bilikli, amma son dərəcədə təvazökar insandır. Bir insan ömrünə sığmayacaq qədər elmi və ictimai uğurları olan bu şəxsiyyət müsahibə ərzində bəy nəslinə yaraşan kübarlıqla danışır və özünün bütün əzəmətini özünəməxsus sadəliyi ilə ifadə edir. Rəşid bəyin elmi sahəsi ilə bağlı fəaliyyəti o qədər çoxdur ki, sanki bir ömür içində bir neçə ömür yaşayıb və öz tərcümeyi-halına neçə-neçə insanın yaşantılarını sığışdırıb. Rəşid bəyin bu günlərdə yetmiş yaşı tamam olur. Onu bu münasibətlə səmimi-qəlbdən təbrik edir, sağlam, firavan, elmi yeniliklərlə dolu ömür arzulayırıq:**

"Kaspi" qəzetinin qonağı Cavanşirlər nəslinin davamçısı, Azərbaycan elmində, neft sənayesində çoxsaylı xidmətləri olan Rəşid Cavanşirdir. Rəşid bəy 1951-ci il iyul ayının 17-də Bakıda anadan olub. 1973-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirib. Bundan sonra Azərbaycanda və ayrı-ayrı ölkələrdə müxtəlif vəzifələri uğurla icra edib. O, həm də Azərbaycan EA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda şöbə müdiri (1984-1997), elmi işlər üzrə direktor müavini (1988-1995) vəzifələrində çalışıb. 1995-2009-cu illərdə bir neçə nüfuzlu beynəlxalq neft şirkətlərində rəhbər vəzifələr tutub, 2009-cu ilin sentyabr ayında BP-Azərbaycan şirkətinin prezidenti təyin olunub

Rəşid bəy olduqca dərin bilikli, amma son dərəcədə təvazökar insandır. Bir insan ömrünə sığmayacaq qədər elmi və ictimai uğurları olan bu şəxsiyyət müsahibə ərzində bəy nəslinə yaraşan kübarlıqla danışır və özünün bütün əzəmətini özünəməxsus sadəliyi ilə ifadə edir. Rəşid bəyin elmi sahəsi ilə bağlı fəaliyyəti o qədər çoxdur ki, sanki bir ömür içində bir neçə ömür yaşayıb və öz tərcümeyi-halına neçə-neçə insanın yaşantılarını sığışdırıb. Rəşid bəyin bu günlərdə yetmiş yaşı tamam olur. Onu bu münasibətlə səmimi-qəlbdən təbrik edir, sağlam, firavan, elmi yeniliklərlə dolu ömür arzulayırıq:

**- Rəşid müəllim, Şuşa şəhərinin əsasını qoyan bəy nəslinin nümayəndəsi, məşhur Cavanşirlər soyunun davamçısı kimi 2020-ci ili - zəfər ilimizi necə xarakterizə edərdiniz?**

- 2020-ci il həm dünya, həm də xalqımız üçün çox ağır keçdi, amma mən bu ili həyatımdakı ən xoşbəxt il sayıram. Səbəbi 44 günlük müharibə nəticəsində torpaqlarımızın azad olunmasıdır. Açığı, inanmırdım ki, bu günü görmək mənə nəsib olacaq. İndi o qədər bəxtiyaram ki, bundan artığını istəməyə, bəlkə də, haqqım çatmaz. Mən bu qələbədə Ali Baş Komandan İlham Əliyevə, müzəffər ordumuza səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Belə qəhrəmanları böyüdən anaların ellərindən öpürəm. Əlbəttə, qardaş Türkiyəyə də öz minnətdarlığımızı bildirməliyik. Düşünürəm ki, hazırda daha da inkişaf etmək, dünyaya öz sözümüzü daha yaxşı demək üçün əlimizdə çox böyük şanslarımız var.

**- Londonda yaşayırsınız. Həmin tarixi günü, qələbə anlarını necə xatırlayırsınız?**

- Mən əslən qarabağlıyam. Şuşanın ermənilər tərəfindən işğal olunduğu gün anam xəstəxanada idi, mən də həyat yoldaşımla baş çəkməyə getmişdim. Xəstəxanaya daxil olub anamı soruşdum, həkim dedi ki, bir neçə dəqiqə sonra onu yanınıza gətirəcəyik. Biz oturub palatada gözlədik, amma nədənsə gəlib-gedən yox idi. Dözməyib bunun səbəbini soruşanda, dedilər ki, anan televizorda Şuşanın ermənilər tərəfindən işğalı xəbərini eşidəndən sonra iflic olub. Heç bir il keçmədi ki, anamın ürəyi dözmədi, vəfat etdi. Bu hadisədən də yola çıxaraq demək mümkündür ki, 2020-ci ilin 8 Noyabrı təkcə qarabağlılar üçün yox, bütün Azərbaycan xalqı üçün misli görünməmiş xoşbəxtlik günü idi. Yerlibazlığı xoşlamıram, səhv etmiməsə, Çingiz Hüseynov yazır ki, Mustafa Kamal Atatürk Məmməd Əmin Rəsulzadəyə deyib ki, Azərbaycanı bölgələrə ayırmaqdan imtina etməsəniz, sizə qələbə qazanmaq çətin olacaq. Mən bu tendensiyanın olmamağını arzu edirəm və bəlkə də, bu birlik qələbəmiz sayəsində mümkün olacaq.

**- Bir az da mənsub olduğunuz Cavanşirlər nəsli barədə danışaq...**

- Biz Pənah xanın nəslindənik. Pənah xanın iki oğlu olub: İbrahimxəlil xan və Mehralı xan. Mən Bakı məktəbində, rus bölməsində oxumuşam, harasa gedəndə soyadımın Cavanşir olduğunu deyəndə inanmır, "belə soyad olmaz" deyib, bəzən gülürdülər. Cavanşirlər nəslinin əksəriyyəti ya güllələnib, ya olduqları yeri tərk ediblər, ya da soyadlarını dəyişiblər. Keçmiş Cavanşirlərin bir qismi indi Pənahxanov, Qalabəyov, İranda isə Pənahpur adlanır. Özüm də başa düşə bilmirəm ki, nə əcəb, babam, atam SSRİ dövründə soyadımızdan imtina etməyiblər. Düzdür, Azərbaycan müstəqillik qazanandan sonra Cavanşir soyadlı çoxları meydana çıxdılar, amma reallıq budur ki, bizim sayımız çox azdır. Babam Abbas bəy Cavanşirin həyat yoldaşı Qumru xanımın atası Cavad bəy Səfərəlibəyov Şuşanın ən parlaq ilərində - 1904-1907-ci illərdə oranın meri olub. Deməli, mən bir tərəfdən Cavanşir, o biri tərəfdən Səfərəlibəyovlardanam. Ata tərəfdən babamın anası Bəhmən Mirzə Qacarın qızı olub. Bəhmən Mirzənin 28 həyat yoldaşından biri də mənim böyük nənəm idi. Bunların heç birini biz bilməmişik, çünki ailəmizdə belə söhbətlər olmurdu. Kaş olardı, gedib həmin insanlardan - birinci şəxslərin dilindən tarixi-mizi öyrənərdik. Baxmayaraq ki, mən Bakıda anadan olmuşam, rusdilliyəm, amma qarabağlı olmaq qanımda var. Yadımdadır ki, uşaq vaxtı Ağdama - ana tərəfdən qohumlarımın yanına gedəndə, bəzən gündə iki dəfə Şuşaya qalxırdıq. Ora bizim ata-babadan qalma evimiz idi. Orda elə günlərimiz olub ki, Şuşanın əldən getməsi bizim üçün böyük ağrı, faciə oldu...

**- Valideynlərinizdən konkret olaraq nələri soruşmaq istəyərdiniz?**

- Çox şeyi. Necə tanış oldular, tanış olanda hansı nəsildən olduqlarını bilirdilərmi... Özlüyümdə indi də bir şeyi aydınlaşdıra bilmirəm: evdən bir foto tapmışdıq, təxminən 1905-1906-cı illərə aid həmin fotoda iki nənəm də var idi. Belə çıxır ki, anamla atam yaxın qohum olublar, amma əslində, aralarında qan əlaqəsi yoxdur. Bax, bunu aydınlaşdırmaq istərdim. Belə bir soyadı necə saxladıqları da mənim üçün sirli məqamlardır. Özüm bəzi məlumatlar toplaya bilmişəm. Qızım mənə Pənahpurun bir kitabını bağışlayıb ki, orda da bəzi məlumatlar əks olunub, amma, təbii ki, bunlar bəs etmir.

**- Pənahəli xan, Mehralı xan, İbrahimxəlil xan və Mehdiqulu xan Qarabağa 80 ilə yaxın rəhbərlik ediblər. Belə bir liderlik qabiliyyəti sizin ailənizə də miras qalıbmı?**

- Mənim də liderlik fəaliyyətlərim olub, düzdür, bəlkə də, bunun genetik irslə hər hansı dərəcədə əlaqəsi var, amma mən birbaşa səbəb kimi bunu göstərə bilmirəm.

**- BP şirkətinə yolunuz necə açıldı?**

- Bunun çox maraqlı tarixçəsi var. 1985-ci ildə Stanford Universitetində elmi işim barədə məruzə edərkən bir nəfər yaxınlaşdı, elmi əsərlərimdən xəbərdar idi və məni öz təşkilatına dəvət etdi. Sovet vətəndaşı olduğum üçün bir az tərəddüd içində idim, amma "bunlar hamısı boş şeydir" deyib ürək-dirək verdi mənə. Elmi mövzum onun üçün maraqlı idi. Həmin insan dünya şöhrətli hidroloq-alim Con Britxoft idi. Hər gün velosipedlə onun yanına gedib-gəlirdim. Sona yaxın birlikdə bir məqalə yazdıq, dünya şöhrətli bir jurnala göndərdik və 1988-ci ildə həmin məqalə nəşr olundu. Bu məqalə dünya elmində klassik iş kimi tanındı və xarici neft şirkətləri Bakıya gəlməmişdən qabaq Xəzərin neft geologiyasını bu məqalədən öyrənirdilər. Daha sonra çıxış üçün Stenforddan Los-Ancelesə yollandım və orada da məşhur bir çinli alimlə tanış oldum. Teh Fu Yen məni "Energy Sources" jurnalının redaksiya heyətinə dəvət etdi və regional redaktor təyin olundum. Sovet dövründə bu, adi bir hadisə deyildi. Orda ünvanımı soruşanda SSRİ yox, Bakı yazdım. Azərbaycan alimlərin məqalələrinin də bu jurnalda çap olunmasına yardım etdim, həmin məqalələrə rəy də yazırdım. 1988-ci ildə Hollandiya nəşriyyatlarından biri məni "Journal Petroleum Science and Engineering" jurnalının redaksiya heyətinə dəvət etdi. Bir neçə ildən sonra xəbər göndərdilər ki, ayrıca bir buraxılışın redaktoru kimi məqalələr toplayın və sizin adınızla nəşr edək. Demək istəyirəm ki, elmdə işlərim yaxşı gedirdi. Azərbaycan müstəqillik əldə edəndən sonra xarici şirkətlər Azərbaycana daxil olmağa başladılar. Fəaliyyətim və dil biliyim sayəsində xarici nümayəndələrlə görüşməkdən çəkinmir və elmi əməkdaşlıq təklifləri irəli sürürdüm. Və belə də oldu. Mən Azərbaycanda beynəlxalq şirkətlərlə elm sahəsində ilk dəfə danışıqlar aparıb müqavilələr imzalayan şəxs olmuşam. İlk belə müqavilə Kanada şirkətləri ilə oldu. Kanadaya gedib çox maraqlı əməliyyatlara şahidlik etmişəm. Biz ora Azərbaycandan bir ton neft qumu göndərmişdik. Belə şey sovet dövründə mümkün olan şey deyildi. Bu, sanki palçıq idi, həm də sizə deyim ki, çox ucuz idi. Nə isə, gəldik gömrüyə, hamı şokda idi. Hamı soruşurdu ki, bu nədir Kanadaya göndərirsiniz. Daha sonra Amerika neft şirkətləri də yavaş-yavaş Azərbaycana ayaq açmağa başladı. Onlar bizdən 3-4 nəfər istədilər ki, gəlib Amerika təcrübəsi ilə tanış olsun. Amma artıq Amerika təcrübəsi olan biri kimi bilirdim ki, oradakı qiymətlər, həyat şəraiti necədir. Ona görə də, bu əməliyyata nə qədər büdcə ayırdıqlarını soruşdum. Büdcəni mənə gönbunları özlərində birləşdirən şəxslərin sayı çox az idi. Bir sözlə, bu qədər şəraiti geridə qoyub xaricdə yeni səhifə açmaq çox riskli məsələ idi. Amma bu addımı atdım, çünki üç əsas səbəbim var idi. Birincisi, Azərbaycan müstəqillik qazandıqdan sonra SSRİ Elmlər Akademiyası dağıldı və aydın oldu ki, fundamental elm istədiyim qədər inkişaf etməyəcək. Çünki bunun üçün imkanlar məhdud idi. İkincisi, mənə tam aydın oldu ki, xarici şirkətlərin Azərbaycana gəlməyi, investisiya yatırmağı vacibdir. Bax, gələcək bunu tələb edir. Üçüncüsü isə o zaman "Əsrin müqaviləsi" imzalanandan sonra Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti təşkil olunanda azərbaycanlıları işə götürməyə başladılar. İş də nə iş... Qızlar katibə, oğlanlar isə təhlükəsizlik sahəsinə. Çünki hələ hazır kadrlar yox idi, xaricdən işçilər gəlirdilər. Mən isə istəyirdim ki, həmvətənlərim başqa sahələrdə də çalışsınlar. Getmək fikrimi akademiyaya dedikdə Midhət Abbasov çox narahat oldu, mənim kimi adamı itirmək istəmirdi. Amma çox yaxşı insan olduğu üçün getməyimə razılıq verdi. Azad Mirzəcanzadəyə fikrimi bildirəndə isə reaksiya bir az fərqli oldu. Çox əsəbiləşdi və dərdilər, çox lüks şərtlər var idi. Mən də təklif etdim ki, belə bir şey lazım deyil, gəlin hərəsində 4 azərbaycanlı alim olan 4 qrup təşkil edək, 2 ay müddətində Amerikaya gəlsinlər və ortada real bir iş olsun. Razılaşdılar və 1992-ci ilin yazında birinci qrup yola düşdü. Bu, həmin dövr üçün böyük xoşbəxtlik idi. İlk dəfə gedəndə işçilər naşı idilər, bilmirdilər ki, nəyi necə etmək lazımdır. Belə-belə, miqyası artırdıq, başqa ölkələrə də səfərlər təşkil etdik. Daha sonra Fransaya elmi konfransa getdim, ondan sonra "Amoco" mənə iş təklifi etdi. Fikirləşəcəyimi dedim, çünki burda da öz işim, aspirantlarım var idi, onları yarı yolda qoya bilməzdim. Onlar da bir neçə il akademiya ilə əlaqəmi kəsmədən davam edə biləcəyimi söylədilər. Çox çətin seçim idi. Çünki belə işlərə imza atmaq üçün insanda bir çox faktor birləşməli idi: dil bilgisi, ixtisas uyğunluğu, iqtisadi sistemi anlamaq. Bütün dedi ki, mən ölənə qədər sən Ali Attestasiya Komissiyasından çıxmayacaqsan. Düzdür, bir neçə il sonra çətinliklə də olsa, razılıq verdi. Həm məni itirmək istəmirdi, həm də "bu nədir, gedib düşmən tərəfdə işləyəcəksən?!" deyirdi. Dedim, düşmənçilik odur ki, Azərbaycanda rüşvətlə işləyəsən. Mən heç vaxt icazə vermərəm ki, hər hansı hərəkətim Vətənimə qarşı olsun. Xaricdə işlədiyim 20 il müddətində bu ideyanı əlimdə bayraq tutdum. Uzun sözün qısası, 1995-ci ilin dekabrında "Amoco" şirkətinə daxil oldum. Bir həftə keçməmiş Hyustona bir həftəlik ezamiyyətə göndərildim, orada texniki məruzələrim oldu. Bir il keçməmiş məni Hyustona bir illik ezamiyyətə göndərdilər, orda tamamilə əlaqəm olmayan bir sahədə çalışdım. Daha sonra xəbər gəldi və 1998-ci ilin fevral ayında Bakıya qayıtdım. Bakıda "Amoco"nun Xəzərdə kəşfiyyat üzrə direktoru vəzifəsini icra edirdim. 1998-ci ilin iyul ayında azərbaycanlı R.Cavansir amerikalılar tərəfindən "İnam" əməliyyat şirkətinə prezident təyin olunur. Nəzərə almaq olar ki, "Əsrin müqaviləsi" 1994-cü ildə imzalanıb və 3-4 il keçməmiş Azərbaycan mütəxəssisi o cür nəhəng bir vəzifəyə təsdiq olundu. Mənə elə gəlirdi ki, bu qədər böyük vəzifələri tutduğuma görə, məni Bakıda xarici vətəndaş hesab edirdilər, ağıllarına belə gəlmirdi ki, azərbaycanlıyam. Bir ay keçməmiş işdə olduğum vaxt elektron məktub gəldi ki, "Amoco" və BP birləşir. Daha sonra belə qərar verildi ki, operatorluğu bir şirkətə versinlər və o vaxtdan BP bütün layihələrin operatoru oldu. Düzdür, bunun mənə təsiri olmadı, amma xaricilər əl-ayağa düşdü, çünki iki şirkət birləşdiyi üçün böyük miqyaslı ixtisarlar baş verəcəkdi. Hətta prezidentlərdən belə, işdən uzaqlaşdırılanlar oldu. Nəməlum vəziyyət idi, hamı oturub nə olacağını gözləyirdi. Bu vəziyyətdə mənə "İnam", "Şahdəniz", "Araz-Alov-Şərq" şirkətlərinin prezidenti vəzifəsini təklif etdilər. 1999-cu ilin yanvarın 1-dən vəzifənin icrasına başladım. Ən uğurlu fəaliyyətim isə "Şahdəniz"lə bağlı oldu - o nəhəng qaz yatağı mənim rəhbər olduğum dönəmdə aşkar olundu. Bu layihənin uğurlu olması o zaman Heydər Əliyevi də çox sevindirmişdi. Biz quyunun kondensatını da H.Əliyevə xatirə kimi bağışladıq. "Şahdəniz"lə bağlı ilk məruzəni isə Vaşinqtonda etmişəm. Azərbaycanın ilk dəfə dünya bazarına çıxması məhz "Şahdəniz"lə mümkün oldu. Mütləq qeyd etməliyəm ki, bu işlərdə Valeh Ələsgərovun da böyük rolu olub.

**- Rəşid müəllim, neftin gələcəyini necə görürsünüz? Dünyada hibrid maşınlar çoxalır, elektrik stansiyaları azalır... Belə bir vəziyyətdə Azərbaycan neft sahəsində hansı strategiya ilə irəliləməlidir?**

- Çox yaxşı sualdır. Artıq Qərbdə böyük neft şirkətlərinə "neftdən əl çəkin, əvvəl qaza, daha sonra təmiz sistemə keçin" kimi təzyiqlər var. Amma bu o demək deyil ki, neftə ehtiyac birdən-birə azalacaq. Düşünürəm ki, neftə tələbat nəinki azalacaq, əskinə, çoxalacaq. Qərb şirkətlərinin neft istehsalını azaltmağı milli neft şirkətlərinin qazanması deməkdir. Neftin gələcəyi ilə bağlı bir o qədər narahatlığım yoxdur. Düşünürəm ki, Azərbaycanın gəlir mənbəyinin neftdən qaza keçməsinə hələ çox uzun müddət lazımdır. Amma ikisinin paralel olması çox yaxşı haldır. Bilirsiniz, "mütəxəssislər" neftin gələcəyi barədə çox proqnoz verirlər, amma Qarabağ qələbəsindən sonra mənim fikirlərim bir nöqtədə cəmləşdi: Azərbaycanın neft strategiyası tamamilə düzgün idi! Bu strategiya ilə biz hələ çox qələbələr qazanacağıq. Düzdür, neftin istehsalı tədricən azala bilər, amma qaz perspektivimiz çox böyükdür. Müqaviləsini iki azərbaycanlının - Rövnəq Abdullayev və mənim imzaladığım "Şəfəq-Asiman" layihəsinin gələcək perspektivinə hədsiz güvənirəm. Xəzərin digər yanından qaz gətirilməsi ilə bağlı da imkanlarımız var.

**- Cənab Prezident İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə mükafatlandırılıbsınız. Bu görüşü necə xatırlayırsınız?**

- Bu, mənim üçün gözlənilməz idi. Adətən, xarici şirkət rəhbərləri "Dostluq" ordeni ilə təltif olunur. Yəqin ki, azərbaycanlı olmağımı nəzərə alıb bu ordeni təqdim etdilər. O görüşdə mənə elə fəxarət dolu sözlər deyildi ki, heç vaxt yadımdan çıxmaz. Görüşə gedəndə heç nədən xəbərim yox idi, içəri girdim ki, hər tərəfdə jurnalistlər var. Utandığımdan nə edəcəyimi bilmirdim. Həmin görüşün bizim işlərimizin gələcəyində müsbət təsiri oldu. Bu ordeni almağıma görə fəxr edir və prezident İlham Əliyevə bir daha öz təşəkkürümü bildirirəm.

**- Rəşid müəllim, 70 yaşınız tamam olur. Bu yaşın pəncərəsindən baxanda, sizcə, Rəşid Cavanşir kim ola bilərdi, kim oldu? 70 ili ürəyinizcə yaşaya bildinizmi?**

- Düzü, qazandığım uğurlar Sovet dövründə heç birimizin ağlına belə gəlməzdi. Müxtəlif sahələrdəki bilgi və təcrübəm mənə kömək etdi, amma həmçinin şəxsi keyfiyyətlərim də bu yolda yardımçım oldu. Mənim əsas sınağım Şimal dənizinin cənub hissəsindəki 3 illik fəaliyyətim olub. Maraqlıdır ki, bütün məşhur BP prezidentlərinin yolu burdan keçib. Bu, sanki əsas sınaq, tramplin idi. Dənizə gedib fəhlələrlə birgə işləmək çox məşəqqətli idi. Təcrübə və bilikdən əlavə bu yoldakı prinsiplərim də mənə kömək oldu. Birinci prinsip ondan ibarət idi ki, mən insani saflığa, təmizliyə həmişə əhəmiyyət vermişəm. Əsasən də, rəhbər işdə çalışanlara. Ən yaxşı mütəxəssisin daxili keyfiyyətlərində belə nə isə əskiklik görsə idim, o adamla yola davam etməzdim. İkincisi, ətrafımda məndən ağıllıların olmasından qorxmurdum. Ətrafıma elə insanlar toplamışam ki, məndən də bilgili olsunlar. Mənim yetirmələrim indi dünyanın hər yerindədirlər. Çünki daim gənclərə bütün bilgimi, təcrübəmi ötürməyə çalışmışam. Yetirmələrim hazırda BP-nin Qərbi Afrika, İraq hissəsinin prezidentidirlər. Mənə sual verirlər ki, bu qədər sahədə necə çalışa bilibsən? Cavabım bu prinsiplərimdir: ətrafına yaltaqlıqdan, rüşvətdən uzaq, təmiz, bilgili insanlar yığmaqla. Ən vacibi isə budur ki, 24 saat işləsən belə, evə gələndə sənə müsbət enerji verən ailənin olmasıdır. Bu mənada, mən ən birinci öz ailəmə borcluyam. Həyat yoldaşımla 49 ildir ki, birlikdəyik və həyata baxışımız tamamilə üst-üstə düşür. Bu, mənə güc verən amillərdəndir. Həmçinin övladlarımın o qədər minnətdaram ki, öz ayaqları üstə özləri dayanıb, mənim vəzifə səlahiyyətlərimdən sui-istifadə etməyiblər. Bir sözlə, ən ağır günlərimdə belə arxalana biləcəyim ailəm olduğu üçün çox xoşbəxtəm.

**Söhbətləşdi: Fərid Hüseyn**

(Fotolar: Global Media Group)

**Şuşanın ermənilər tərəfindən işğal olunduğu gün anam xəstəxanada idi, mən də həyat yoldaşımla baş çəkməyə getmişdim. Xəstəxanaya daxil olub anamı soruşdum, həkim dedi ki, bir neçə dəqiqə sonra onu yanınıza gətirəcəyik. Biz oturub palatada gözlədik, amma nədənsə, gəlib-gedən yox idi. Dözməyib bunun səbəbini soruşanda, dedilər ki, anan televizorda Şuşanın ermənilər tərəfindən işğalı xəbərini eşidəndən sonra iflic olub. Heç bir il keçmədi ki, anamın ürəyi dözmədi, vəfat etdi.**

**Düşünürəm ki, neftə tələbat nəinki azalacaq, əskinə, çoxalacaq. Qərb şirkətlərinin neft istehsalını azaltmağı milli neft şirkətlərinin qazanması deməkdir. Neftin gələcəyi ilə bağlı bir o qədər narahatlığım yoxdur. Düşünürəm ki, Azərbaycanın gəlir mənbəyinin neftdən qaza keçməsinə hələ çox uzun müddət lazımdır. Amma ikisinin paralel olması çox yaxşı haldır. Bilirsiniz, "mütəxəssislər" neftin gələcəyi barədə çox proqnoz verirlər, amma Qarabağ qələbəsindən sonra mənim fikirlərim bir nöqtədə cəmləşdi: Azərbaycanın neft strategiyası tamamilə düzgün idi! Bu strategiya ilə biz hələ çox qələbələr qazanacağıq.**